**COP tarixində bir ilk: "Çağrı Mərkəzi" fəaliyyət göstərəcək**

Noyabrdan etibarən COP29-la bağlı xüsusi "Çağrı Mərkəzi" yaradılacaq. Bu indiyə qədər keçirilən COP tədbirləri çərçivəsində bir ilk olacaq.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında COP29 Azərbaycan Əməliyyat Şirkətinin Ziyarətçi təcrübəsi üzrə şöbə müdiri İlkin Cavadov deyib: "Konfrans iştirakçıları və şəhərimizin qonaqları tədbirlə bağlı hansısa sualları olduqda "Çağrı Mərkəzi"nə müraciət edərək məlumat əldə edə biləcəklər."

O, bildirib ki, "Çağrı Mərkəzi"nə sorğular verilməsi ənənəvi üsulla, yəni zəng vasitəsilə yanaşı, eyni zamanda, onlayn çatla da mümkün olacaq: "Tədbir iştirakçıları və qonaqlar vebsayt üzərindən çat, həmçinin vatsap və teleqram kanalları vasitəsilə əlaqə saxlayıb hər hansı bir məlumatı sorğulaya biləcəklər".

**AZƏRTAC**
**2024, 25 oktyabr**